ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# BEYNƏLXALQ ERKƏN ÖYRƏNMƏ VƏ UŞAQ RİFAHI TƏDQİQATI (IELS 2025) NƏTİCƏLƏRİNƏ DAİR TƏQDİMAT

## IELS NƏDİR?

- **IELS (Beynəlxalq erkən öyrənmə və uşaq rifahı)** tədqiqatı 2018-ci ildən etibarən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən keçirilir.
- Tədqiqat **5 yaşlı uşaqları** əhatə edir.
- Uşaqların **idrak bacarıqlarını (təməl savadlılıq** və **təməl riyazi bacarıqlar), icraedici funksiyalarını** və **sosial-emosional** bacarıqlarını əhatə edir.
- Tapşırıqlar planşetdə **interaktiv** və **audio formatda** uşaqlara təqdim edilir.
- Əlavə olaraq uşaqların **tərbiyəçiləri** və **valideynləri sorğuda** iştirak edir.
- Qiymətləndirmə prosesi hər uşaqla **fərdi şəkildə** həyata keçirilir.

# IELS-DƏ İŞTİRAK NİYƏ ƏHƏMİYYƏTLİDİR?

- Müvafiq təhsil pilləsi üzrə təhsil sisteminin vəziyyətinin **beynəlxalq meyar və standartlarla** müqayisə edilməsi
- **Təhsil siyasətinin** düzgün və effektiv aparılması istiqamətində beynəlxalq qiymətləndirmə tədqiqatlarından istifadə edilməsi
- **Ölkə təhsil göstəricilərinin** inkişafının dövri olaraq izlənilməsi
- Məktəbəqədər **təhsilin keyfiyyətinin** yaxşılaşdırılması
- Təhsil istiqamətində **beynəlxalq əməkdaşlıq və müsbət beynəlxalq təcrübənin** öyrənilməsi

# IELS 2025-DƏ İŞTİRAKÇILIQ GÖSTƏRİCİLƏRİ

## İştirakçı ölkə və regionlar

- Bakı, Sumqayıt (Azərbaycan)
- Seara, Para, San-Paulu (Braziliya)
- İngiltərə (Birləşmiş Krallıq)
- Flamand Regionu (Belçika)
- Koreya
- Malta
- Niderland
- Birləşmiş Ərəb Əmirlikləri

## İştirakçı sayları

Bütün ölkələr üzrə ümumi iştirakçı sayı **23 min+**

**Azərbaycan üzrə iştirakçılıq**

- **2 731 uşaq**
- **818 müəllim/tərbiyəçi**
- **2 697 valideyn**

## TƏDQİQATDA ÖLÇÜLƏN SAHƏLƏR




▲ Birbaşa ölçülən bacarıqlar

● Dolayı yolla (sorğu ilə) ölçülən bacarıqlar

# IELS 2025 NƏTİCƏLƏRİ – TƏMƏL ÖYRƏNMƏ

## Təməl riyazi bacarıqlar




## Təməl savadlılıq



ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

# IELS 2025 NƏTİCƏLƏRİ – İCRAEDİCİ FUNKSİYALAR



# IELS 2025 NƏTİCƏLƏRİ – SOSİAL EMOSİONAL İNKİŞAF



# IELS 2025 NƏTİCƏLƏRİ – GENDERLƏRARASI FƏRQ




- Təməl öyrənmənin hər 2 alt bölməsi üzrə oğlanların **çox az fərqlə** (statistik əhəmiyyətli olmayan) üstünlüyü müşahidə olunur.
- Genderlərarası bu fərq iştirakçı ölkələr arasında **ən aşağı** göstəricilərdən biridir.

# IELS 2025 NƏTİCƏLƏRİ – SOSİAL-İQTİSADİ STATUS ÜZRƏ FƏRQLƏR




- **Yuxarı** sosial-iqtisadi statusa malik olan şagirdlər **aşağı** sosial-iqtisadi statusa malik olan yaşıdlarını təməl öyrənmə üzrə **58 bal qabaqlayırlar**.
- Bu göstərici iştirakçı ölkələrin ortalamasından aşağıdır. Ölkəmiz yalnız **Koreya** və **Braziliyadan** geri qalır.
- Sosial-iqtisadi statusu aşağı olan **şagirdlərin 22%-i** təməl öyrənmə üzrə **ən yaxşı 10% sırasında** yer almışdır. Bu, **dayanıqlılıq** (resilience) göstəricisinə görə ölkəni birinci edir.

# IELS 2025 NƏTİCƏLƏRİ – STATİSTİK PAYLANMA




- Şagirdlərin fərdi nailiyyətləri arasında çox **kəskin fərqlər mövcuddur**.
- Təməl öyrənmə üzrə ən aşağı və ən yuxarı 10%-lik qruplar arasında **271 bal fərq** qeydə alınıb.

# RƏQƏMSAL ALƏTLƏRDƏN İSTİFADƏ

## Uşaqların rəqəmsal alətlərdən istifadə tezliyi (faizlə)




- ❖ **Hər 5 uşaqdan 4-ü** həftədə ən azı bir dəfə rəqəmsal alətlərdən istifadə edir.
- ❖ Bu göstərici ölkələrin ortalaması ilə **eynidir**.

# RƏQƏMSAL ALƏTLƏRDƏN İSTİFADƏ

## Uşaqların rəqəmsal alətlərdən istifadə tezliyinin təməl öyrənmə ilə əlaqəsi, bal fərqi




- Rəqəmsal alətlərdən istifadə ilə təməl öyrənmə arasında **birbaşa müsbət əlaqə müşahidə edilmir**.
- Gündəlik bu alətlərdən istifadə edən uşaqların təməl öyrənmə üzrə göstəriciləri **digər qrupa nisbətən daha zəifdir**.

# UŞAĞIN İNKİŞAFINA YÖNƏLMİŞ VALİDEYN-UŞAQ BİRGƏ FƏALİYYƏTLƏRİ

## Ölkə üzrə valideyn-uşaq fəaliyyətlərinin payı (faizlə)



ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

# ANANIN TƏHSİLİNİN ERKƏN İNKİŞAFA TƏSİRİ




- **Ali təhsilli anaların** övladları bütün akademik və koqnitiv sahələrdə daha yüksək nəticə göstərir. Ən böyük fərq **təməl riyazi bacarıqlar** (36 bal) və **təməl savadlılıq** (27 bal) sahələrində müşahidə olunur.
- Dolayı yolla ölçülən (sorğu vasitəsilə) **prososial davranış** (32 bal) və **güvən** (18 bal fərqi) göstəriciləri üzrə ali təhsilli anaların uşaqları **əhəmiyyətli dərəcədə irəlidədir**.
- Dolayı yolla ölçülən (sorğu vasitəsilə) **nizam-intizamlı davranış** sahəsi üzrə göstəricilərdə əks dinamika müşahidə olunur.

# ERKƏN UŞAQLIQ DÖVRÜNDƏ VƏ TƏHSİL PROSESİNDƏ VALİDEYNLƏRİN İŞTİRAKI

## Uşağın təhsil aldığı məktəbəqədər təhsil müəssisəsində keçirilən fəaliyyətlərdə valideyn iştirakçılığı




- Valideynlərin **90%-dən çoxu** məktəbəqədər təhsil müəssisəsində keçirilən fəaliyyətlərdə tez-tez iştirak edir.
- Ölkəmiz bu göstəriciyə görə **digər ölkələri qabaqlayır**.

# EV MÜHİTİNİN ERKƏN İNKİŞAFA TƏSİRİ

**Valideynlərin övladlarına fəal şəkildə kitab oxuması yalnız dil deyil, bir çox idrak mərkəzlərini stimullaşdırır.**

Həftədə ən az 5 gün valideynləri tərəfindən kitab oxunan uşaqlar, oxunmayan yaşıdlarına nisbətən:

- **Təməl riyazi bacarıqlarda 31 bal;**
- **Təməl savadlılıqda 22 bal yuxarı nəticə göstərirlər.**

**Həftədə 5 gün**

**+31 bal**

**+22 bal**

## ERKƏN İNKİŞAFA TƏSİR EDƏN ƏSAS AMİLLƏR




Mənbə: İƏİT 2018 (https://doi.org/10.1787/af403e1e-en)

ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜRLƏR!